Ədalət.- 2022.- 14 may.- S.8.



*Zakir Bağırov*

# "Xeyirxah qadın" hekayəsi

Məclis çoxdan davam etsə də bir nəticə əldə olmamışdı.

Məclisə orta yaşlı bir qadın daxil oldu. O, saçlarını kişi kimi qırxdırmışdı. Qısa don geyinmişdi. Sinəsi açıq idi. Boynundakı boyunbağı diqqəti cəlb edirdi. Barmağında bir neçə üzük var idi. Qoluna saat bağlamışdı. Hər iki qolundakı bilərziklər diqqəti cəlb edirdi. Məclisdəki qadınlar həsrətlə ona baxırdılar. Kişilər həyəcan içində idilər. "İndi evdə inqilab başlayacaq"

Elə bil qadın öz zinətlərini nümayiş etdirmək üçün məclisə gəlmişdi.

-Mən iş qadınıyam. - Qadın dilləndi. - "Xeyirxah" qadınam. Bəlkə də bilirsiniz. Heç kim tələbə oğlanlara ev vermir. Amma mən vermişəm.

Qadın bir neçə dəqiqə susdu.

- Beş yerdə şirkətim var. Beş yerdə evim, beş bağım var..

O, bir müddət qıraqda oturmuş qadına və onunla yanaşı oturmuş üç qıza baxdı.

-Sizin məclisinizi izləyirəm. Bilirəm, o barmağını qadına uzatdı. Əri avtomobil qəzasında dünyasını dəyişib. Yanğın zamanı evi yanıb.

-Mənim bağ evlərimin biri boşdur. -Gəlib orada yaşaya bilərlər.

Məclisdəki qadınlardan biri dilləndi:

-Xeyirxah iş görürsən. O, üzünü evi yanmış qadına tutdu:

-Razısan?

-Əlbətdə.

Aradan bir müddət keçdi. Xeyirxah qadın məclisə gəldi.Evi yanmış qadın və onun üç qızı da burada idilər.

Xeyirxah qadın bildirdi:

-Bunlar bağ evində qalmaq istəmədilər.

Məclisdəkilər (bir nəfərdən başqa) hamı təəccüblə evi yanmış qadına və üç qızına baxdılar.

Bir qadın dedi:

-Bəlkə orada - burada qalmaq xoşuna gəlir ?

Başqa bir qadın bildirdi:

-Sən "xeyirxah" qadınsan. Tələbələrə ev kirayə veribsən. Onlar necədirlər ?

Deyəsən "xeyirxah" qadın bu sualı gözləyirdi. Bir müddət tutuldu. Haçandan-haçana:

-Bilmirəm, - dedi.

-Məgər tələbə oğlanlar daha sizdə qalmırlar ?

-Yox...

-Niyə ?

Mənə dedilər ki, bir ay burda olmayacağıq.

-Məndə dedim ki, bir ayın kirayə pulunu verin. Onlar razılaşmadılar. "Buna imkanımız yoxdur." - dedilər. Çıxıb getdilər.

-İndi evdə xaricilər kirayə qalırlar. Altı aylıq pulu qabaqcadan veriblər.

Məclis üzvlərinin birisi dedi:

-Evi yanmış qadın və üç qızı görəsən buraya niyə gəliblər ? Belələrin məclisdən çıxarmaq lazımdır.

-Lazımdır...

-Lazımdır...

-Lazımdır!

Məclis üzvlərindən biri üzvlərdən soruşdu:

-Niyə soruşmursuz ? Evi yanmış qadın və onun üç qızı "xeyirxah" qadın bağ evində yaşamaq istəmirlər ? Bunun səbəbi nədir ?

"Xeyirxah" qadın:

-Mən onlara hər ayın axırında yüz manat pul da verərdim. Hətta paltar vermişəm.

Məclis üzvü bir bağlamanı göstərdi:

-Budur ?

Məclis üzvü bağlamanı açdı. Paltarları bir-bir göstərdi. Paltarların rəngi solmuşdu. Bir neçə yerdən cırılmışdı. Bu nədir ?

Qadını və qızları təhqir etmək deyil ? Onlar da təhqir etdiyinizə görə bağ evinizdə qalmaq istəməyiblər. Olmazdı, ana və üç qızı üçün təzə paltar alsaydın ? Onları yox, sənin kimi "xeyirxah" qadını məclisdən çıxarmaq lazımdır.

Xeyirxah qadın onu dəstəkləyənlərə baxdı.

Onlardan kömək istədi. Amma onlar başlarını aşağı dikərək süsmüşdülər.